## ◆ Məmməd İlqar

### Neynim?

Ha çaldım, könlümün bu təşnə vaxtı,
Sazım dinmədiki, dinmədi neynim?
Qarğamaq istədim taleyi, baxtı,
Dilim dönmədiki, dönmədi neynim?

Özüm öz odumda əridim itdim,
Karvan buludları bəri yeritdim,
Arazı axıtdım, Kürü yeritdim,
Odum sönmədiki, sönmədi neynim?

Aldı bir havalı xatirə məni,
Bələdi ənbərə-ətirə məni,
Dedim  bəlkə mənə yetirə məni,
Göydən enmədiki, enmədi neynim?

İlğımdı, dumandı, sisdi nədisə?
Sehirdi, sədadı, səsdi nədisə?
Axır bu zalımın qəsdi nədisə?
Aparır hələdə *Məmmədi* neynim?

### Gözəl

Ən gözəl dərdimsən dərdlər içində
Dərdindən düşmüşəm, dərdə mən gözəl.
Dərd gözəl çəkilir əgər gözəlsə,
Gözəl dərd diləsən, dərdəm ən gözəl.

Sərdim gülşənini dərdə mən ömrüm,
Dər gülüm, gülünü dər də mən ömrüm,
Hər günü ölümdü dərdə mən ömrüm,
Ölər mi sən kimi dərdə mən, gözəl.?

*Məmməd* könül sevdi kimə nə, dərdi?
Özgə kim sevdirər ki mənə dərdi?
Bilməm bu sevginin kimə nə dərdi?
Mənə dərd gözəldi, dərdə mən gözəl.